



# Zəfərin ən ali mükafatı

## İkinci Qarabağ savaşında misilsiz xidmətlər göstərən 83 hərbçimiz "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə milli orden və medallar təsis edilmişdi. Lakin 2020-ci ildə 44-günlük Vətən müharibəsindəki zəfərdən sonra isə onların sayı daha da artdı.

Prezident İlham Əliyevin qələbə münasibətilə təsis etdiyi ordenlər sırasına "Zəfər" və "Qarabağ" ordenləri də əlavə olundu. Şanlı zəfərin ən ali mükafatı isə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adıdır.

### 900 əyarlı qızıldan hazırlanan xüsusi fərqlənmə nişanı

2020-ci il noyabrın 26-da "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna dəyişiklik edildikdən sonra torpaqlarımızın azadlığı uğrunda savaşa atılan şücaətli, əzmli igidlərimizin göstərdiyi qəhrəmanlıqlar yeni medallarla dəyərləndirildi. Onların sırasında "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları yer aldı.

"Vətən Müharibəsi Qəhrəmanı" adı haqqında Əsasnamədə isə qeyd olunub ki, Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" ən ali fərqlənmə dərəcəsidir. "Vətən Müharibəsi Qəhrəmanı" adının xüsusi fərqlənmə nişanı - "Vətən Müharibəsi Qəhrəmanı" medalıdır. "Vətən Müharibəsi Qəhrəmanı" medalının təsviri qanunla müəyyən olunur. Medal döşün sol tərəfinə, digər orden və medallardan yuxarıda taxılır.

Vətən Müharibəsi Qəhrəmanının xüsusi fərqlənmə nişanı 900 əyarlı qızıldan hazırlanaraq, biri digərinin üzərinə yerləşdirilmiş diametri 42 mm olan iki səkkizguşəli ulduz formalı lövhədən ibarətdir. Alt ulduz ağ qızıldan, üst ulduz sarı qızıldan hazırlanıb. Medalın ön tərəfində alt ulduzun guşələri mərkəzdə ikitərəfli hamar şüalı, mərkəzdən sol və sağ tərəflərə doğru hamar pilləvari formadadır. Üst ulduzun guşələri uclarında kiçik kürəciklər olmaqla, ikitərəfli hamar şüalıdırlar. Üst ulduzun mərkəzində zolaq ilə konturlanmış dairəvi lövhə yerləşdirilib. Lövhənin ətrafında guşələri hamar şüalı səkkizguşəli ulduz təsvir olunub. Zolağın üzərində səkkiz ədəd maili xətlər var. Dairəvi lövhənin mərkəzində tünd-qırmızı minalı fonda aypara və ulduz təsvir olunub.

Medalda bütün elementlər relyefli olaraq qabarıqdır. Medalın arxa tərəfi isə hamar səthlidir, mərkəzdən yuxarıda "Vətən Müharibəsi Qəhrəmanı" sözləri, mərkəzdə "Vətən Müharibəsi 2020" sözləri və rəqəmləri yazılıb.

Medalın paltara bərkidilmək üçün elementi olan 37 mm x 50 mm beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Üzərində Dövlət Bayrağının rənglərinə uyğun rənglərdə zolaqlar təsvir olunmuş xara lentin mərkəzinə səkkizguşəli ulduz bərkidilib.

### Ən yüksək fərqlənmə dərəcəsi hər şəxsə yalnız bir dəfə verilir

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş 83 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

Bu ən ali mükafatı almış şəxsə "Vətən Müharibəsi Qəhrəmanı" medalı və adın verilməsi haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun aktı təqdim olunur. Bu ən yüksək fərqlənmə dərəcəsi hər şəxsə yalnız bir dəfə verilir.

Bu şərəfli ada Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrində xidmət etmiş 5 general, 10 polkovnik, 13 polkovnik-leytenant, 1 nəfər 1-ci dərəcəli kapitan, 18 mayor, 13 kapitan, 6 baş leytenant, 6 baş gizir, 2 gizir, 5 kiçik gizir, 1 kiçik miçman və 3 əsgər layiq görülüb. "Vətən Müharibəsi Qəhrəmanı" adı verilən hərbçilərimizin 34 nəfəri döyüşlərdə şəhid olub, 49 nəfəri isə sağdır. "Vətən Müharibəsi Qəhrəmanı" adı almış şəxslərə 2000 manat həcmində Prezident təqaüdü verilir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*